# Yeni təlim texnologiyalarından istifadə XXI əsr Azərbaycan məktəbinin başlica tələblərindən biri kimi

**Şəhla İbrahim qızı Mirzəyeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** mirzayeva.shehla@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
p.ü.f.d., dos. N.B. İmamverdiyeva

**Açar sözlər:** təhsil, təlim, yeni təlim texnologiyaları, idrak, yaradıcılıq
**Ключевые слова:** образование, обучение, новые технологии обучения, познание, творчество
**Key words:** raining, education, new training technologies, cognition, creativity

Son illərdə Azərbaycanda yeni pedaqoji təfəkkür formalaşır. Artıq sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. İndi cəmiyyətə müstəqil qərarlar verə bilən yaradıcı şəxslər lazımdır. Bu da öz növbəsində müxtəlif təhsil pillələrində təhsilə spesifik yanaşma tələb edir. Məhz bu zərurətdən də Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası hazırlandı. Strategiyanın 5 istiqamətindən ikincisi təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsil verənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir. Buna nail olmaq üçün hafizə məktəbindən təfəkkür məktəbinə keçilir.

Müvafiq dövlət sənədlərinə əsasən, sxemlər hazırlanmağı məqsədəuyğun hesab etdik və fikrimizi əsaslandırmağa çalışdıq.

*Sxem №1 Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlər Strategiyası*



*Sxem №2 Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövvlət Strategiyasının həyata keçirilməsi ilə bağlı fəaliyyət planı*




*Sxem № 3 Azərbaycan 2020 Gələcəyə baxış inkişaf konsepsiyası*




Bu işdə uğurlarımızla yanaşı, çətinliklərimiz də var. Azərbaycanda prof. Ə.Ə. Əilzadə "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" kitabında bu çətinliklərin səbəbini pedaqoji elmlərin birtərəfli diferensasiyasında və ənənəvi pedaqoji sistemin məktəblərdə yaratdığı anti-psixoloji ab-hava ilə əlaqələndirirdi. Bu problemin aradan qaldırılmasına çalışılır.

Belə ki, XXI əsr özünəqədərki bütün dövrlərin inkişaf zirvəsini təşkil etməklə insanın şəxsiyyət olaraq intellektuallıq səviyyəsini daha da aktuallaşdırdı. Ağlın hökmranlığını, insani

hisslərin daha fəallığını, ədalətin və demokratiyanın, vətəndaş cəmiyyətinin bərqərar olmasını təhsilin baş məqsədi səviyyəsinə qaldırdı. Elmi-texniki tərəqqi çox yüksək inkişaf səviyyəsinə çataraq görünməmiş nailiyyətlər əldə etdiyi kimi, insanları fəlakətlərə düçar edən nəticələri də doğururdu. Fəlakətlərə gəlib çatmamaq üçün isə insan ağlının və insanilik duyğusunun fəallaşdırılması, özünüdərk və özünüqiymətləndirmənin yüksəldilməsi, fəaliyyətin, münasibətlərin dəyərləndirilməsi, vətəndaşlıq missiyasının gücləndirilməsi və s. kimi qlobal vəzifələr meydana çıxdı. Yeni təlim metodları və iş formaları ilə əqli nəticələrdə mühüm rol oynayan tənqidi təfəkkürün, müstəqil fikir fəaliyyətinin və əməli işlərin inkişaf etdirilməsi ön plana keçdi.

İndiki fikir plüralizmi şəraitində əqli keyfiyyətlərin: təfəkkür müstəqilliyi və tənqidiliyinin, təxəyyülün əhəmiyyəti xüsusilə artır. Cəmiyyətə lazım olan yaradıcı şəxsiyyətləri müasir məktəb yetişdirməlidir. Yaradıcılıq üçün isə şagird təxəyyülü inkişaf etməlidir. Bunu necə etməli?

Ə.Əlizadə özünün "İdrak prosesləri və hisslər" kitabında maraqlı bir sxem verir. O sxemə əsasən demək olar ki, istər divergent, istərsə də konvergent təfəkkür yaradıcı təxəyyüllə qarşılıqlı əlaqədədir. O sxemə nəzər salaq:

*Sxem №4 Divergent təfəkkürlə konvergent təfəkkürün yaradıcı təxəyyüllə qarşılıqlı əlaqəsi*




[6, 32]

Dvergent təfəkkür kimi, konvergent təfəkkürün də motivasiya əsası var. Bu mürəkkəb bir proses olsa da, onun bütün tərəfləri məhz şəxsiyyət amili ilə bağlıdır. Şəxsiyyət əmsalı problemi isə yeni anlamda məhz yaradıcılıq kontekstində araşdırılmalıdır.

Məktəblərin iş təcrübəsini bu baxımdan ətraflı təhlil etmək və şagirdlərdə əqli keyfiyyətlərin inkişafı üçün əlverişli şərait yaratmaq günün aktual problemlərindən biridir. Təhsilimiz də bu vəzifənin öhdəsindən gəlməyə çalışır. Bu səbəbdən də təlimin əsas təşkili forması olan dərsin müasirləşməsi ön plana çəkilib. Azərbaycan məktəblərində hal-hazırda fəal/interaktiv təlim tətbiq olunur. Düzdür, ənənəvi dərsin 300 illik bir tarixi vardır. Bu üç yüz il ərzində onun inkişafına dövrün onlarla görkəmli pedaqoqunun əməyi həsr olunmuşdur. Amma müasir şəraitdə bu dərs artıq dövrün tələblərinə cavab vermir. Əgər ənənəvi didaktik sistem assosiativ nəzəriyyəyə əsaslanırdısa, müasir təhsil sistemi şəxsiyyət konsepsiyasına söykənir. Yeni pedaqoji təfəkkür baxımından həm müəllim, həm də şagird pedaqoji prosesin subyektlərinə çevrilir. Məhz məsələnin belə qoyuluşu konseptual əhəmiyyətə malikdir. Bu nöqtədə də ənənəvi dərslə müasir dərs bir-birindən köklü şəkildə fərqlənir. Hal-hazırda Azərbaycan məktəblərində geniş tətbiq olunan fəal dərslərə Kurikulum əsasında yazılmış dərslik komplektinə daxil olan Müəllim üçün vəsaitlərdə kifayət qədər nümunələr var.

Təlimin təşkili formalarından biri də qeyri-standart dərslərdir. Belə dərslər mahiyyət etibarilə standart struktura malik olmurlar. Başqa sözlə, qeyri-standart dərslər strukturu olmayan improvizə edilmiş tədris məşğələləridir (dərs-ekskursiya, dərs-oyun, dərs-konfrans, kompüter-dərs, dərs-nağıl, dərs-yarış, dərs-kosmos və s.). Bu tədris məşğələlərinin yaranması təhsilin

demokratik əsasda qurulmasının nəticəsidir.

Hal-hazırda Azərbaycan məktəblərində inteqrativ dərslərdən də istifadə olunur.

İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan son dövrlərdə "inteqrativ təlim", "inteqrativ dərs", "inteqrativ fənn" və s. anlayışlar da işlənir. Eyni zamanda inteqrativ təlimə xüsusi pedaqoji texnologiyalardan biri kimi yanaşılır.

Bütün bunlar üçün müəllimin təlimə yeni yanaşması zəruridir.

Tarix və Ədəbiyyat fənləri əsasında hazırlanmış bir inteqrativ dərsin gedişinə nəzər salaq:

Standartlar:

Ədəbiyyat: 1.2.4; 2.2.1; 3.1.2

Tarix: 1.2.1; 3.1.1; 4.1.1.

Mövzu: Cümhuriyyət dövründə Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixi

Resurslar: dərslik, internet, iş vərəqləri, markerlər

İş üsulları: Akvarium, Beyin həmləsi, BİBÖ, Kollektivlə iş

Dərsin gedişi:

Qeyd edək ki, dərs XI sinif şagirdləri üçün nəzərdə tutulub. Hamıya bəllidir ki, şagirdlərin yaşı artdıqca və dünyagörüşləri genişləndikcə öyrənmənin əhəmiyyətini göstərən motivlər də dəyişir, inkişaf edir, xüsusən yuxarı siniflərdə onlar əsaslandırılmış olur. Heç bir müəllim üçün isə sirr deyil ki, təlim mütləq həyatla əlaqələndirilməlidir. Şagirdlər bilməlidirlər ki, insan elmə istinad edərək xarüqələr yaradır. Təlimin həyatla əlaqələndirilməsi elə bir vacib prinsipdir ki, bütün məktəb fənlərinin tədrisi prosesinə, bütün tərbiyə tədbirlərinin gedişinə nüfuz edir.

Şagirdlərin peşə seçimi olan zamanda onlarda idrak marağının yaradılması və inkişaf etdirilməsi, idrak fəaliyyətinin gücləndirilməsi son dərəcə mühüm və məsul bir vəzifədir. Müəllimin nümunəvi şəxsiyyəti, sinifdə işgüzar ab-havanın yaradılması və ədalətli qiymətləndirmə aparmağı bacarması şagirdlərin səylə çalışması üçün motivlər ola bilər.

Beləliklə, həm öyrənmənin əsaslandırılması, həm də tədris işində əyləncəlilik şagirdlərdə dərs üçün idrak marağının inkişaf etdirilməsi məqsədi güdür, hamılıqla icbari tam orta təhsilin həyata keçirilməsi və sinifdə müvəffəqiyyətli, dinamik təlim işi bu məqsəd üçün obyektiv olaraq əlverişli şərait yaradır. Bütün bunlar isə dərsdə şagirdlərin daimi diqqətli olmalarını təmin edir ki, bu da təlim prosesinin ən mühüm psixoloji əsaslarındandır.

Beləliklə, dərs Cümhuriyyət dövrü ilə əlaqədar hazırlanmış bir multimediyanın təqdimatı ilə başlayır. Şagirdlərə sual verilir ki, bu dövr haqqında nə bilirsiniz? Bu dövrdə Azərbaycan ədəbiyyatının və tarixinin səciyyəvi xüsusiyyətlərini şərh edə bilərsinizmi?

Bu vaxt sinfə BİBÖ cədvəlinin birinci xanasına müvafiq qeydlər etmək tapşırılır. Şagirdlər Tarix fənnindən Cümhuriyyət dövrünü ayrıca keçsələr də, Ədəbiyyatda konkret Cümhuriyyət dövrü ədəbiyyatı adlı dərs yoxdur, amma şair və yazıçıların tərcümeyi-halında, onların yaşadıqları dövrün şərhdə, əsərlərin təhlilində bu dövr haqqında məlumat verilib. Cədvəlin ikinci xanasında, əlbəttə, şagirdlərin bu dövr barədə daha aydın və geniş təsəvvürə malik olmaq istədikləri qeyd olunur. Bu vaxt sinif iki qrupa bölünür. Qruplara bölünmədə müəllim müxtəlif üsullardan istifadə edə bilər. Onların içərisində biz püşkatma üsulunu tövsiyə edirik. Belə ki, şagirdlər stolun üstündəki bükülü kağızları açır, oxuduqdan sonra öz masalarını tuturlar.

Aşağıda BİBÖ cədvəli əks olunub.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Dərsin növbəti mərhələsində isə Akvarium üsulundan istifadə edilir. Daxili dairəyə aşağıdakı iş vərəqi təqdim olunur:

İş vərəqləri:

1.Məmməd Əmin Rəsulzadə milli azadlıq yolunda əldə edilən müvəffəqiyyətlərin qazanılmasında bədii ədəbiyyatın rolunu belə dəyərləndirir: "Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur" və "Qurtuluş günü" məqaləsində yazır: "Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər, millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz".

Verilmiş fikrə münasibət bildirin. Fikirlərinizi ədəbiyyatdan gətirdiyiniz nümunələrlə əsaslandırın. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaranması, fəaliyyəti və süqutunu şərh edin. Hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə çalışın.

Aşağıdakı cədvəl sizə nə deyir? Cümhuriyyət dövründə fəaliyyət göstərmiş Azərbaycan şair və yazıçılarının o dövrün ovqatını əks etdirən əsərlərini sadalayın.

| Qəzalar və dairələr | Quberniyalar | Mərkəzi | Sahəsi (kv.km) | Təsis ili | Sonu | Tərkibindəki məntəqələr |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Bakı | Bakı | Bakı | | 1859 | 1929 | Balaxanı-Sabunçi,Maştağa, Saray |
| Quba | «--» | Quba | | 1840 | 1929 | Quba, Həzrə,Buduq,Şabran |
| Şamaxı | «--» | Şamaxı | 6653 | 1840 | 1929 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Göyçay | «--» | Göyçay | 4988 | 1867 | 1929 | |
| Cavad | «--» | Salyan | 11617 | 1868 | 1929 | |
| Lənkəran | «--» | Lənkəran | 5321,5 | | 1929 | Astara,Lən-kəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad |
| Gəncə (Yelizavetpol) | Gəncə | Gəncə | | 1840 | 1929 | Qazax, Şəmşədil, Gəncə, Ayrım |
| Ərəş | «--» | Ağdaş | 3212,5 | 1873 | 1929 | |
| Nuxa | «--» | Şəki | 3008,7 | 1841 | 1929 | Nuxa, Xaç-maz, Qəbələ |
| Qazax | «--» | Ağstafa | 5908 | 1868 | 1929 | |
| Cavanşir | «--» | Tərtər | 5497 | 1873 | 1929 | |
| Qaryagin | «--» | Cəbrayıl | 3332 | 1873 | 1929 | |
| Zəngəzur | «--» | Gorus | | | 1929 | |
| Şuşa | «--» | Şuşa | 4911 | 1841 | 1929 | Mığri, Kəbirli, Çələbürt, Vərəndə |
| Naxçıvan | İrəvan (əvvəllər) | Naxçıvan | 4378 | 1841 | 1929 | Naxçıvan, Ordubad, Dərələyəz |
| Şərur-Dərələyəz | İrəvan | Baş Noraşen | | | 1929 | |
| Zaqatala | (dairə) | Zaqatala | 3736 | 1860 | 1929 | Əliabad, Qax,Car-Muxax,Balakən |
| Göycə | (dairə) | Basar-Keçər | | | | |

Müzakirələrdən sonra xarici dairədəki şagirdlər yoldaşlarını qiymətləndirir.

Onlara aşağıdakı qiymətləndirmə vərəqinin verilməsi tövsiyə olunur:

| Meyar | Cümhuriyyət dövrü ədəbiyyatının səciyyəvi cəhətlərini şərh edir. | Cümhuriyyət dövrünün tarixi hadisələrini şərh edir. Onlar arasındakı səbəb-nəticə əlaqələrini şərh edir. | Fikirlərini əsaslandırmağı bacarır. | Fikirlərini müasir həyatla əlaqələndirir. |
|---|---|---|---|---|
| | | | | |

Dərsin sonunda isə şagirdlərə aşağıdakı özünüqiymətləndirmə vərəqinin verilməsi tövsiyə olunur.

| Meyarlar | Bəli | Xeyir | Qismən |
|---|---|---|---|
| Cümhuriyyət dövrünün tarixi haqqında lazımi məlumatları bilirəm. | | | |
| Cümhuriyyət dövrü ədəbiyyatını səciyyələndirə bilirəm. | | | |

| | | | |
|---|---|---|---|
| Hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirə bilirəm. | | | |
| Nitqimdə lazımi səs tonundan istifadə etməyi və lazımi məqamlarda pauza etməyi bacarıram. | | | |
| Göz təması qura bilirəm. | | | |

Qeyd etmək istərdim ki, şagird üçün ən maraqlı dərs bilavasitə onun özünün aktiv iştirak etdiyi, təfəkkür imkanlarına əsaslanan tədris məşğələsidir. Gördüyümüz kimi, müasir təlimdə istifadə olunan rəngarəng texnologiyalar buna imkan verir.

Yuxarı sinif şagirdinin yaş xüsusiyyətlərinə uyğun texnologiyalardan biri də Layihələrdir.

Metodun əsas mahiyyəti uşaqların əldə etdikləri biliklərin həyatda onlara lazım olmağını göstərməkdir. Tədris prosesində şagirdə tanış olmayan, onun üçün əhəmiyyət daşıyan, real həyatdan götürülmüş ən vacib problemin həllinə, onun malik olduğu və əldə edəcəyi biliklərdən istifadə etmək öyrədilir. Müəllim yeni informasiyaların alınma mənbəyini göstərə bilir. Layihələr metodunda uşaqlar fərdi, cütlər və qrup şəklində müəyyən vaxt ərzində müstəqil fəaliyyət göstərməyə, həmişə hansısa bir problemi həll etməyə yönəlir. Problemin həllində müxtəlif təlim metodları və vasitələri tətbiq edilməklə yanaşı, həm də müxtəlif elm, texnika sahəsində sınaqdan çıxmış biliklərdən interaktiv şəkildə istifadə etməsi nəzərdə tutulur. Müasir pedaqoji texnologiyaların bünövrəsi kimi layihələr metodu-müxtəlif təlim vasitələri və informasiya texnologiyalarından istifadə etməklə reallaşır. Burada həm müasir (kompüter telekommunikasiyaları, elektron baza göstəriciləri, video və multimedia vasitələri, faks, video rabitə), həm də ənənəvi (elm və məlumat kitabları, video yazıları və b.) tədris vasitələrindən istifadə edilə bilər. Həmçinin layihələr metodu bir kompleks problem üzrə yerinə yetirilir [10, 14]

Layihə 30 № li məktəbin X sinfində həyata keçirildi. Layihə müddətində Blum taksonomiyasının bütün mərhələlərinə əməl olundu.

X sinif şagirdlərinə siniflərinin veb səhifələrini yaratmaq və Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş azərbaycanlılar haqqında məlumat toplamaq tapşırılmışdı. Şagirdlərə aşağıdakı təməl sualını cavablandırmaq lazım idi: “Sonunu düşünən qəhrəman ola bilməz” fikri sizə nə deyir?

Sinif qruplara bölündü. Bir qrup qəhrəmanlar haqqında məlumat topladı. Digər qrup Böyük Vətən müharibəsi və Qarabağ döyüşləri haqqında məlumat topladı. Üçüncü qrup isə sorğu apardı. Sorğuda aşağıdakı suallar qoyuldu: “9 May günü hansı hissləri keçirirsiniz?”, “Qələbə əhval-ruhiyyəsi hiss edirsinizmi?”

Cavablar birmənalı olmadı. Şagirdlər isə öz araşdırmalarında bu fikrə gəldilər ki, Azərbaycan xalqı öz torpaqlarını geri qaytaracaq və 9 May gününü həmvətənlərimiz ürəklərində nisgil yox, sevinc hissi ilə qeyd edəcəklər.

Bildiyimiz kimi, veb səhifələrinin hazırlanması 10-cu sinifdə tədris olunur. Uşaqları həm biliklərini tətbiq etdilər, həm araşdırma apardılar, əqli nəticəyə gəldilər, həm də yeni bir məhsul-siniflərinin veb səhifələrini yaratdılar.

Demək istərdim ki, yuxarı siniflərdə təlimin özünün inkişafetdirici, tərbiyəedici və təhsilverici funksiyalarını yerinə yetirmək üçün şagirdlərin yaş xüsusiyyətləri və onların anlama səviyyələrini bilmək lazımdır. Bu, müəllimə yeni təlim texnologiyalarını yüksək səviyyədə tətbiq etməyə imkan verir. Bu tətbiqin gözəl nəticələri olur.

Təlimin digər təşkili formaları da yuxarı sinifləri məktəbə bağlayan əsrarəngiz bağlar ola

bilər. Belə dərslərin onlar üçün xeyirli olmasını təmin etmək üçün isə şagirdlərin real tələbatları dəqiqləşdirilməli, dərsin məqsədi müəyyənləşdirilməli, bu məqsədə çatmaq üçün isə maraqlı təlim texnologiyaları seçilməlidir.

Bütün bunlar bizə aşağıdakıları deməyə imkan verir:

yeni təlim texnologiyalarından şagirdin yaş xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü istifadə edillərsə, onlar:

— yaradıcı təfəkkürün inkişafı üçün zəruri olan idrak proseslərini inkişafını;
— həyati əhəmiyyət kəsb edən məntiqi və tənqidi təfəkkürün inkişafını;
— başqalarını dinləmə qabiliyyətinin inkişafını;
— obrazlı təfəkkürün inkişafını;
— əqli nəticə çıxarmaq qabiliyyətinin inkişafını təmin edər.

Yeni pedaqoji təfəkkürün inkişafı, yeni pedaqoji nəzəriyyələr yaradır ki, bu da məktəbin gedəcək yolunu müəyyənləşdirir. Pedaqoji nəzəriyyənin keyfiyyəti, ümumtəhsil məktəbində təhsilin keyfiyyətinin yüklsəlməsinə bilavasitə təsir edir.

Hazırda elmi-texniki tərəqqinin inkişafı təbii olaraq təlim prosesində də texniki vasitələrin tətbiqini tələb edir və bunun üçün əlverişli şərait və imkanlar yaradır.

Hamıya bəllidir ki, elmə və keyfiyyətli təhsilə tələbat tarix boyu həmişə olmuşdur. Klassik pedaqoqlar daim təhsilin keyfiyyətini yüksəltmək uğrunda çalışmışlar. Hər dövrün keyfiyyət meyarları olmuşdur. Müasir dövrün keyfiyyət meyarı, təlim-tərbiyə prosesində innovasiyaların tətbiqidir. Çünki insan təfəkkürü, düşüncəsi bir yerdə durmur, o, daim inkişafda və yenilık axtarışındadır. Bu yeniliklər intellekt, kompüter, məsafədən təhsil, elektron dərsliklər, analitik-praktik təhlillər, dialoqlar, müzakirələr, layihələr, fəal və interaktiv təlim metodları, informasiya kommunikasiya texnologiyaları və digər innovasiyalardır. Bunlar nəzərə alınmadan müasir dərsi təsəvvür etmək çətindir.

Yeni pedaqoji texnologiyalar, innavativ metodlar təlim prosesinə yeni yanaşma tərzidir. İnnovasiyaların tətbiqi təhsil verəndən pedaqoji ustalıq, səriştəlilik və peşəkarlıq tələb edir. Pedaqoji texnologiyalara yiyələnmək, innovasiyalrı düzgün tətbiq etmək pedaqoji ustalığın əsasını təşkil edir.

Demək təhsildə innovasiyalardan istifadə edilməsi təhsilin keyfiyyətini yüksəltməklə sənayenin, iqtisadiyyatın, insan fəaliyyətinin bütün sahələrində keyfiyyətin yüksəldilməsi təmin oluna bilir.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməkdədir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Bütün bunları təmin etmək məqsədi ilə Azərbaycan təhsilində aparılan islahatlar hafizə məktəbindən təfəkkür məktəbinə keçid etməyi tələb edir. Bununla əlaqədar da təlim prosesində şagirdlərin idrak fəallığının aktivləşdirilməsi xüsusi aktual bir problem kimi tədqiqat obyektinə çevrilmişdir.

**Məqalənin aktuallığı.** Məqalədə eksperimentlər yuxarı siniflərdə aparılmış, bu yaş dövründəki şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi yolları şərh olunmuşdur ki, bu da müasir dövr üçün çox aktual bir məsələdir.

**Məqalənin elmi yeniliyi.** Qaldırılan problem yeni və aktualdır. Belə ki, Azərbaycan pedaqoji fikri tarixində yeni təlim texnologiyalarından istifadənin şagirdlərin idrak fəaliyyətinin

yüksəldilməsində bir vasitə kimi rolu şərh olunmuş, əhəmiyyətliliyi nəzəri və praktik cəhətdən əsaslandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müasir tələblərə cavab verən müəllimlərin hazırlanmasında istifadə edilə bilər. Təqdim olunan eksperimentlər, onların nəticələri müəllimlər üçün gözəl material rolunu oynaya, həmçinin ali məktəb müəllimlərini üçün də lazımlı material ola bilər.

## Ədəbiyyat


1. Abbasov Ə.M Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar. Kurikulum, 2013, № 2, s. 14-21
2. Anastasia Kitsantas, Nada Dabbagh Learning to Learn with Integrative Learning Technologies (ILT): A Practical ... https://books.google.az/books?id=q_0nDwAAQBAJ&pg=PA34&dq=using%20learning%20technologies&hl=ru&sa=
3. “Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası” https://president.az/files/future_az.pdf
4. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 168 №-li sərəncamı, 15 iyun 1999-cu il.
5. Azərbaycanda təhsilin inkişaf proqramları http://edu.gov.az/az/page/473, http://edu.gov.az/az/page/83
6. Əlizadə Ə. İdrak prosesləri və hisslər. Bakı, 2006, 345 s.
7. Gülxani PƏNAH. 525-ci qəzet. 10 dekabr 2009-cu il, səh.7. Əsrin böyük səadəti – Xalq Cümhuriyyəti dövründə ədəbiyyat http://anl.az/down/meqale/525/525_dekabr2009/98810.ht
8. Qasımova L., Mirzəyeva Ş. Azərbaycan təhsilində kurikulum konsepsiyası. Bakı: Elm və təhsil, 2016, 228 s.
9. Махмутов М.И. Современный урок. М.: Просвещение, 1981, 184 с.
10. Nəzərov A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. Bakı: ADPU-nun nəşriyyatı, 2012, 103 s.


**Ш.И. Мирзоева**

## Использование новых технологий в обучении как одно из главных требований в Азербайджанской школе XXI века

## Резюме

В статье даётся информация о уже сформированном в Азербайджане новом педагогическом мышлении. Убедительными ссылками и доказательствами указывается что это требование времени. Даётся информация о современных типах уроков. Освещён процесс одного интегративного урока. Показано обоснованное мнение о возможности достижения целей с помощью новых технологий.

**Sh.I. Mirzoeva**

## The use of new training technologies as a main requirement of the 21 st century Azerbaijan school

## Summary

The article gives information about recently formed pedagogical cognition in Azerbaijan. The advancement of pedagogical thought is the requirement of the time and is justified by believable evidences and references. In addition, the article gives insight on contemporary lesson types as well as sheds light on the process of interactive lessons. Furthermore the article talks about facilitating the process of reaching set goals concerning teaching and it is justified broadly.

**Redaksiyaya daxil olub:** 20.11.2019